Bəstəkarın portreti

Martın ilk günü Muzey Mərkəzinin əzəmətli binasında yerləşən Musiqi Mədəniyyəti Dövlət Muzeyinin konsert salonunda "Baku Contemporary Music Society" və "Cadenza" orkestrinin birgə təşkil etdiyi portret-konsert baş tutdu. Bu dəfə dinləyicilərə Əməkdar incəsənət xadimi, bəstəkar, professor Aydın K.Azimin "portreti təqdim olundu": Aydın müəllim həm dəyərli söhbəti, həm də əsərləri ilə görüşümüzə gəldi. Musiqişünas Vəfa Abbasovanın moderatorluq etdiyi tədbirdə dəyərli solistlərimiz Humay Qasımzadə (piano), Atabala Manafzadə (piano), Fatimə Nəsirli (violino), Elşən Məmmədov (qoboy), Kamil Hüseynzadə (vibrafon) bəstəkarın bir-birindən maraqlı əsərlərini ifa etdilər.



Başlanğıcda Aydın müəllim qısa olaraq özü haqqında - təhsil illərindən, müəllimlərindən, fəaliyyətindən - bəhs etdi, daha sonra Vəfa xanımla həmsöhbət oldu. Onlar musiqimizi maraqlandıran bir çox mövzulardan danışdı: musiqili teatrın önəmi, bəstəkarlarımızda milli təfəkkürün formalaşması, Azərbaycan musiqisinin tarixi inkişaf yolu, musiqi təhsilimiz və s. Bu mövzular ətrafında Aydın müəllim publikaya önəmli mesajlar da verdi. Musiqili teatrın önəmindən bəhs ederkən o: "Hər hansı bir xalqın mədəni səviyyəsi haqqında məlumat əldə etmək istəyirsinizsə, onların filarmoniyasına deyil, musiqili teatrına baş çəkin," - deyə qeyd etdi. Bəstəkar fikrini dahi Üzeyir bəy Hacıbəylinin yaradıcılığının məhz musiqili teatr üçün yazdığı əsərlərlə başladığını və bununla da Azərbaycan musiqisində yeni dövrün təməlini qoyduğu faktı ilə təsdiqlədi: "Leyli və Məcnun" makam göstərisi, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları Azərbaycan xalqının mədəni səviyyəsinə önəmli təsir göstərmiş əsərlərdir." Aydın müəllim günümüzdə Dövlət Akademik Musiqili Teatrın, həmçinin Dövlət Akademik Opera və Balet Teatrının öz həqiqi funksiyalarını yerinə yetirmədiyini, bunun üçün gənc bəstəkarların yeni əsərlərini səhnələşdirməli olduğunu vurğuladı.

Vəfa xanımın söhbət zamanı toxunduğu önəmli məqam Azərbaycan musiqisinin tarixi inkişaf yolu ilə bağlı idi və Aydın müəllimin bu mövzuya baxışının fərqli olduğunu da qeyd etdi. Davamında bəstəkar: "Azərbaycan professional musiqisinin tarixi çoxlarının təkrar-təkrar dediyi kimi Üzeyir bəydən başlamır. Musiqimiz daha qədimdir və Abu Nəsr al-Farabi, Əbdülqadir Marağayi, Səfiəddin Ürməvi və digər böyük şəxsiyyətlərin dövrünə söykənir. Üzeyir bəy isə musiqimizdə yeni səhifə açmış dahidir," - dedi. Bu fikrə qatılmamaq mümkün deyil. Həqiqətən də musiqi cəmiyyətimizdə qəlibləşmiş düşüncələr vardır ki, onlara yeni baxış lazımdır. Bəstəkarın dediyi kimi, artıq dövr yenilənir, tarixi, sosial, siyasi şərait dəyişir. "Mən çox sevinirəm ki, ölkəmiz üçün belə önəmli dövrün şahidi oluram, çünki xalqımız uzun müddətdən sonra ilk dəfə böyük qələbə çalmışdır. Azərbaycan xalqı, ələlxüsus Azərbaycan bəstəkarı öz musiqisinə yenidən baxmalı, milli musiqisini yenidən dəyərləndirməlidir. Məhz buna görə bəstəkarlarımız alim, hər musiqi əsəri isə bir tədqiqat olmalı," - dedi Aydın müəllim. "Bunun üçün biz muğamatı dərindən öyrənməli, aşıq musiqisini "çayxana"lardan çıxarmalıyıq, dilimizi, tariximizi yaxşı bilməliyik."



Vəfa xanımın söhbət zamanı toxunduğu önəmli məqam Azərbaycan musiqisinin tarixi inkişaf yolu ilə bağlı idi və Aydın müəllimin bu mövzuya baxışının fərqli olduğunu da qeyd etdi. Davamında bəstəkar: "Azərbaycan professional musiqisinin tarixi çoxlarının təkrar-təkrar dediyi kimi Üzeyir bəydən başlamır. Musiqimiz daha qədimdir və Abu Nəsr al-Farabi, Əbdülqadir Marağayi, Səfiəddin Ürməvi və digər böyük şəxsiyyətlərin dövrünə söykənir...

Tədbirin bədii hissəsində Aydın K.Azimin öncədən hazırlanmış piano üçün "La makam", qoboy və vibrafon üçün "Sonuncu Romulus", piano üçün "Axar su", "Sonaxanım", violino və piano üçün "Sonata-poema" əsərləri səsləndi. "La makam" ərəbcədə "makam olmayan"/"muğam olmayan" kimi tərcümə olunur. Əsər bəstəkarın da qeyd etdiyi kimi qədim xalqımızın əski tarixi qatlarından gələn bir nəfəs idi. Makam olmayacaq qədər qədim və ilkəl... Daha öncə duymadığım "Sonuncu Romulus" əsəri adı keçərkən bəstəkarın fəxrlə "ən böyük müəllim" adlandırdığı müəllimi Qara Qarayevə yətlərini xalqımızın yaratdığı eyni adlı türkü dən almışdır.

Dəyərli bəstəkarımızın düşüncələri bir çoxumuza böyük ümidlər vəd etsə də, təəssüf ki, tədbirə toplaşmış dinləyicilərin (ki, salon dolmuşdu) yaratdığı atmosfer barədə eyni şeyi deyə bilməyəcəm. Təəssüratlarım mənə toplumumuzun böyük hissəsinin görüşdə toxunulan mövzulara, səslənən musiqiyə hazır olmadığını pıçıldadı. Laqeyd baxışların olduğu qədər, ara-sıra etiraz səsləri də ucalırdı. Aydın müəllimin "yalnız simfoniya yazmaqla, partitur doldurmaqla bəstəkar olunmaz" fikrinə obrazlı ifadə edəcək olsam "konsalılar"ın (keçmişdə Konservatoriya, günümüzdə Bakı Musiqi Akademiyasında təhsil alanların ayaması - Üzeyir bəyin təbiri ilə bir növ "obrazavonski") "simfoniya yoxdursa, onda konservatoriya da yoxdur" atmacasını səsləndirəcək qədər gərginləşmiş, daşlaşmış hava vardı salonda. Bu mənzərə mənə böyük ustad Vaqif Səmədoğlunun "Yayda qartopu oyunu" pyesini xatırlatdı... Sanki həmin gün Bakıya yağan qarın soyuqluğu küçələrə deyil, salonun mərmər sütunlarına hopmuşdu. O dərəcədə ki, Aydın müəllimə ünvanlanan "siz bir müddət Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasına rəhbərlik etmisiniz" fikrinə o, sakit tərzdə "mən kafedraya rəhbərlik etməmişəm, mən kafedra müdiri işləmişəm" cavabını verdi. Məncə əlavə şərhə ehtiyac yoxdur.

Hər şey milli musiqi naminə!..

Leyla Həmid Əhməd Xan